

# Biznes əməliyyatları hesabatı

2025-ci ilin yekunları

# Əsas göstəricilər (2025-ci ilin sonu)

## Hasilat

| | |
|---|---|
| **AÇG** | |
| neft (min barel/gün) | 330 |
| neft (milyon ton) | 16 |
| **Şahdəniz** | |
| qaz (milyard kubmetr) | 27 |
| kondensat (milyon ton) | 4 |

## Əməliyyat məsrəfləri (milyon dollar)

| | |
|---|---|
| AÇG | 564 |
| BTC | 131 |
| Şahdəniz | 2315 |
| CQBK | 71 |

## Əsaslı məsrəflər (milyon dollar)

| | |
|---|---|
| AÇG | 1288 |
| BTC | 98 |
| Şahdəniz | 1087 |
| CQBK | 38 |



# 2025-ci ilin mühüm hadisələri – AÇG əməliyyatları

- **~4,6 milyard barel** neft ilk hasilatdan bəri əldə olunub
- **~61 milyard kubmetr** səmt qazı ilk hasilatdan bəri dövlətə təhvil verilib.
- **10 neft hasilatı quyusu, 5 su injektoru, 1 qaz injektoru və şlamların yenidən laya vurulması üçün 1 quyu** qazılıb və tamamlanıb.
- İlkin **sərbəst təbii qaz (STQ)** hasilat quyusunda qazma işləri uğurla tamamlanıb. Quyu ilk STQ hasilatı üçün əsas hədəf lay sayılan Qırmakıüstü Qumlu (QÜQ) lay dəstində qaz ehtiyatlarının mövcudluğunu təsdiqləyib; bu laydan hasilat 2026-cı ilin ikinci yarısına planlaşdırılır. Qırmakıaltı (QA) lay dəstində də yüksək təzyiqli qaz ehtiyatlarının mövcudluğu aşkar edilib; 2026-cı ilin birinci yarısında bu laydan hasilata başlamaq planlaşdırılır. Bu, sınaq məqsədilə aparılacaq qısamüddətli hasilat kimi nəzərdə tutulur və bundan sonra hasilat daha dayazda yerləşən QÜQ layından davam edəcək.
- Dərinsulu Günəşli ərazisində **bir çox quyularda sualtı müdaxilə əməliyyatları** başlanıb. Bu işlər üçün bp-nin Xəzərdəki əməliyyatlarında ilk dəfə olaraq quyuya dikborusuz yüngül müdaxilə texnologiyası tətbiq olunur.



*Dərinsulu Günəşli platforması*

# 2025-ci ilin mühüm hadisələri – Şahdəniz əməliyyatları

- **~264 milyard kubmetr** qaz ilk hasilatdan bəri əldə olunub.
- **~52 milyon ton** kondensat ilk hasilatdan bəri əldə olunub.
- **Şahdəniz 2 layihəsi** çərçivəsində şərq-şimal cinahında qalan quyularda sualtı işlər üzrə fəaliyyətlər davam edib.
- Yekun investisiya qərarı qəbul edildikdən sonra **Şahdəniz Kompressiya (ŞDK) layihəsi** bir sıra iri müqavilələrin verilməsi ilə irəliləyib. Bu müqavilələr üzrə tikinti işləri qrafikə uyğun olaraq davam edir.
- Sentyabr ayında ŞDK platformasının üst modulları üçün **ilk polad kəsimi**ni icra etməklə layihə mühüm bir hadisəni qeyd edib.



*Şahdəniz Kompressiya platformasının 3D modeli*

# 2025-ci ilin mühüm hadisələri – Səngəçal terminalı

- **~209 milyon barel** neft və kondensat və **~27 milyard kubmetr** Şahdəniz qazı 2025-ci ildə Səngəçal terminalından ixrac edilib.
- **Gündəlik ixrac gücü:** 1,2 milyon barel neft və kondensat və 100 milyon kubmetr qaz.
- **Səngəçal terminalının elektrikləşdirilməsi (STEL) layihəsi** üzrə üç əsas müqavilə imzalanıb və hazırda bu müqavilələr üzrə iş həcminə daxil olan fəaliyyətlər – o cümlədən mühəndis-layihələndirmə, təchizat, quraşdırma və tikinti işləri, təhlükəsiz şəkildə və qrafikə uyğun davam edir.



*Səngəçal terminalı*

# 2025-ci ilin mühüm hadisələri – Şəfəq günəş layihəsi

- İyun ayında layihə üzrə **Yekun investisiya qərarı (YİQ)** qəbul edilib.
- YİQ qəbul edildikdən sonra **iki əsas müqavilə imzalanıb**:
  - mühəndislik, təchizat və tikinti xidmətləri üzrə bütün iş həcmini, eləcə də obyektin ilk iki il ərzində istismar və texniki xidmət işlərini əhatə edən müqavilə;
  - modul təchizatı üçün müqavilə.
- **Tikinti işləri Cəbrayıl rayonunda qrafikə uyğun irəliləyib**:
  - Layihə sahəsində hazırlıq işləri tamamlanıb;
  - Hazırda tikinti işləri davam edir;
  - Modul təchizatı üzrə işlər başlayıb; ilk panellər avqust ayında əraziyə çatdırılıb.



*Şəfəq günəş layihəsi üzrə tikinti işləri*

# Digər layihələr üzrə mühüm hadisələr

- **Şəfəq-Asiman dəniz blokunda** Aşağı Suraxanı layına bir quyunun qazılması da daxil olmaqla əlavə qiymətləndirmə işləri planlaşdırılır.
- **Qarabağ yatağında** dənizdibi sensor qovşaqlarla (OBN) tədqiqat daxil olmaqla seysmik tədqiqat proqramı həyata keçirilir. Tədqiqatın yataq haqqında bilgiləri artıracağı, quyuların planlaşdırılması işlərinə və yatağın işlənmə strategiyalarının optimallaşdırmasına kömək edəcəyi gözlənilir.
- **ADUA layihəsi** üzrə 2026-cı ilin fevral və aprel ayları arasında 2D yüksək dəqiqlikli (HR) seysmik tədqiqat daxil olmaqla seysmik tədqiqat proqramının aparılması planlaşdırılır.







*Şəfəq--Asiman*



*Qarabağ yatağında OBN seysmik tədqiqat*

# 2025-ci ildə bp-nin işçiləri

- **2344 Azərbaycan vətəndaşı** 2025-ci ilin sonunda bp-də işləyib.
- Azərbaycanda ixtisaslı işçilərin **90%-dən çoxu yerli kadrlardır**.





# 2025-ci ildə yerli ehtiyatlardan istifadə

| **Yerli podratçılar/təchizatçılar (Azərbaycan, Gürcüstan, Türkiyə regionu)** | **Sayı** | **Xərclənib (milyon dollar)** |
|---|---|---|
| Kiçik və orta müəssisələr | 231 | 557,8 |
| Dövlət şirkətləri | 46 | 73,5 |
| Yerli tərəfdaşı olan birgə müəssisələr | 15 | 689 |
| Xarici podratçıların ölkə daxilində məsrəfləri | 74 | 384,5 |
| **Ölkə daxilində cəmi xərclər*** | **366** | **1705****|




* Bu məbləğ bp-nin yerli şirkətlərlə birbaşa xərclərini və regionda fəaliyyət göstərən xarici şirkətlərlə müqavilələr üzrə yerli işçi qüvvəsinə / xidmətlərə / materiallara çəkilmiş bilavasitə (subpodratçı) xərcləri göstərir.

** Ümumi üçüncü tərəf xərclərinin 66%-i

# 2025-ci ildə sosial təşəbbüslər

**Azərbaycanda sosial təşəbbüslər**
(ödənilmiş, milyon dollar)

| | |
|---|---|
| bp və bp-nin əməliyyatçısı olduğu layihələrdəki tərəfdaşları | 2,4 |
| bp 100% | 1,8 |
| **Cəmi** | 4,2 |



*Ölkənin zəngin mədəni və tarixi irsinin təbliği*



*Ən qabaqcıl beynəlxalq biliklərin Azərbaycana gətirilməsi*


*Yerli icmalarda su şəraitinin yaxşılaşdırılması*